Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

# Azərbaycanda informasiya azadlığı inkişafın başlıca xüsusiyyətlərindən biri kimi müəyyən edilib

**Bu gün dünya miqyasında ən mühüm təsir vasitəsi qismində informasiyanın çıxış etməsi heç kimə sirr deyil. İnformasiyanın insan həyatına, istənilən dövlətin və cəmiyyətin fəaliyyətinə təsirinin güclənməsi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərindən etibarən daha da güclənib və o, sosial inkişafın başlıca xüsusiyyətlərindən birinə çevrilib. Təbii ki, bunu şərtləndirən səbəblər mövcuddur.**

### Azərbaycan informasiya azadlığına müasir sivilizasiyanın əsas dəyərlərindən biri kimi yanaşır

Hazırda informasiyanın təsir dairəsinin artmasına gətirib çıxaran başlıca amil telekommunikasiya sahəsindəki elmi-texniki dinamik inkişafla müəyyən edilir. Bu istiqamətdə yeni nailiyyətlər informasiya ilə əlaqəli fəaliyyətin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin inkişaf dərəcəsini müəyyən edir. Bunu elə Azərbaycanın timsalında görmək olar.

Bu gün Azərbaycan informasiya və kommunikasiya texnologiyalarının tətbiq səviyyəsi baxımından regionun lideri olmaqla yanaşı, dünyada da öncül yerlərdən birini tutur. Bu fonda o da məlumdur ki, 2024-cü ilədək fiber-optik və digər qabaqcıl texnologiyaları ilə genişzolaqlı internet şəbəkələrinin və xidmətlərin əhatə dairəsi 80%-dək genişləndiriləcək. Bu hədəf çərçivəsində ölkədə 2024-cü ilədək güclü infrastrukturun qurulması ilə bağlı mexanizmlərin tətbiqi mühüm rol oynayır. İnternet istifadəçiləri göstəricisinə görə ölkəmiz digər MDB ölkələri ilə müqayisədə liderdir. Ölkədə mobil sektor da dinamik inkişaf edir və hazırda hər 100 nəfərə 112 mobil abunəçi düşür. Bütün bunlar informasiya texnologiyaları sahəsində Azərbaycanda söz və fikir azadlığının təmin edilməsini də şərtləndirir.

Amma ən əsas məqam odur ki, ölkəmizdə informasiya sahəsində insan fəaliyyətinin azadlıqları da təmin edilir. Azərbaycan buna müasir sivilizasiyanın əsas dəyərlərindən biri kimi yanaşır. Lakin bir sıra beynəlxalq qurumlar, əsasən də beynəlxalq QHT-lər bunu görməzlikdən gəlir və Azərbaycana qarşı ikili standartlar sərgiləyirlər. Təbii ki, bu, Azərbaycanı tutduğu inkişaf yolundan döndərə bilməz.

Ölkəmiz insanların məlumatlandırılması sahəsində hüquq və azadlıqların qorunması, milli informasi infrastrukturunun təkmilləşdirilməsi və sabit fəaliyyətinin təmin edilməsinə cəmiyyətin maraqları sistemində yanaşır. Həyata keçirilən bütün islahatlarda və digər proseslərdə fikir, ifadə, söz azadlığının da ən yüksək dərəcədə təmin olunması xüsusi diqqət mərkəzində yer alır.

Azərbaycan qəbul edir ki, söz və düşüncə azadlığı bütün vətəndaşların haqqıdır. Öz növbəsində, buna müvafiq olaraq, media azadlığı, fikir plüralizmi də təmin edilir. Bu halda da jurnalistlərin üzərinə düşən əsas məsuliyyət mövcud qanunvericiliyə uyğun olaraq, cəmiyyətdə gedən bütün islahatların və proseslərin mediada obyektiv işıqlandırılmasının təmini, ictimai-siyasi və hüquqi savadlılığın artırılmasıdır. Elə dövlətin də mediadan əsas istəyi məhz budur. Azərbaycan təcrübəsi göstərir ki, söz və məlumat azadlığının, bütün islahatların və proseslərin açıqlığının təmin edilməsi əksər hallarda bunun mətbuat və digər kütləvi informasiya vasitələrində necə işıqlandırılmasından asılıdır. Dövlət də mediaya məhz bu müstəvidə yaxınlaşır. Ümumiyyətlə, dövlət söz və fikir azadlığını cəmiyyətin keyfiyyətcə yenilənməsi və inkişafı üçün prioritet məqam kimi qəbul edir. Ölkəmizdə söz, mətbuat, düşüncə azadlığı cəmiyyətdə aparılan bütün islahatların mahiyyətini tam şəkildə ortaya qoyan ədalət və demokratiya anlayışları ilə uzlaşır. Təsadüfi deyil ki, Azərbaycan Konstitusiyası da söz, media və düşüncə azadlığının təmin edilməsinə yönəlmiş əsas prinsipləri özündə əks etdirir.



### İnformasiya mübarizəsi əsri

Azərbaycanda plüralizmin inkişafının nəticəsi olaraq ölkə daxilində müxtəlif baxış və siyasi meyllərin mövcudluğu təbiidir. Bütün bunlar dövlətin milli maraqlarına da cavab verir. Çünki XXI əsr həm də informasiya mübarizəsi əsridir. Bu əsrdə informasiyanı məhdudlaşdırmağa çalışmaq yalnız məğlubiyyətə xidmət edir. Əksinə, informasiyanın inkişafına daha çox şərait yaradanlar qalib gəlir. Bu mənada, istər ölkə, istərsə də beynəlxalq ictimaiyyətin Azərbaycan reallıqları ilə dolğun məlumatlandırılmasında, təbii ki, informasiyanın sərbəst axınının təmin edilməsi zəruridir. Amma təbii ki, bu zaman mili maraqların qorunması da ön planda yer almalıdır. Ən əsası, nəzərə alınmalıdır ki, Azərbaycan postmüharibə şəraitindədir. Bu fonda ölkəmizə böhtan atanlara qarşı informasiya müharibəsində daha çevik fəaliyyətə ciddi ehtiyac var. Dövlət də bunu nəzərə alır.

Bu gün ölkəmizə qarşı qərəzli yanaşmalara cavab olaraq Azərbaycanın ayrı-ayrı sahələrdə əldə etdiyi uğurları əsaslı şəkildə ölkə və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq medianın, eləcə də informasiya yayımına çıxışı olan hər bir vətəndaşın ümdə vəzifəsidir. Azərbaycan ərazilərini azad etdikdən sonra inkişaf yolunda inamla irəliləyir. Düşünülmüş və məqsədyönlü siyasət uğurların davamlılığını təmin etməklə, gələcəkdə daha böyük uğurların əldə olunmasına stimul verir. Amma bunun üçün informasiya cəbhəsində də daim etibarlı müdafiə və hücum taktikasının həyata keçirilməsinə ciddi zərurət var. Bu mənada təsadüfi deyil ki, Azərbaycanda medianın azadlıq prinsipi Konstitusiya prinsipi kimi təsbit edilir. Bununla dövlət informasiya azadlığında maraqlı tərəf olduğunu bir daha ən yüksək səviyyədə nümayiş etdirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**